Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Fikir və söz azadlığına tam təminat Azərbaycanda inkişafın mühüm amilinə çevrilib...

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

**Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra fikir, söz və məlumat azadlığı sahəsində islahatlara başlayıb, insan hüquq və azadlıqlarının, o cümlədən fikir və söz azadlığının inkişafına xüsusi önəm verib. Bunun ən bariz nümunəsini hərbi cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslərin cinayət işi üzrə məhkəmənin baxış iclasında görmək olar.**

### Sosial media platformaları vasitəsilə vətəndaşların fikir ifadə imkanları genişlənib

Xatırladaq ki, Ermənistan Respublikası və onun silahlı qüvvələri, o cümlədən Ermənistanın yaratdığı qanunsuz "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfərə qarşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə ittiham irəli sürülüb. Hərbi cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslərin cinayət işi üzrə məhkəmənin baxış iclası keçirilir. Onlar burada fikirlərini sərbəst ifadə edirlər.

Xatırladaq ki, demokratik, hüquqi dövlət olan Azərbaycanda cəmiyyətin hərtərəfli inkişafı üçün əsas elementlərdən olan fikir və söz azadlığı tam təmin edilir. Bu hüquq Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsində təsbit olunub. Konstitusiyanın 47-ci maddəsinə əsasən, hər kəs fikir və söz azadlığı hüququna malikdir, heç kəs öz fikrinə görə təqib edilə bilməz. Bundan əlavə, 50-ci maddəyə əsasən, hər kəsin qanuni yolla informasiya axtarmaq, almaq və yaymaq hüququ vardır. Bu hüquqlar ölkənin əsas qanunverici aktları ilə yanaşı, Azərbaycanın qoşulduğu beynəlxalq insan hüquqları sənədlərində də öz əksini tapmışdır. 1990-cı illərin sonlarından başlayaraq, Azərbaycanda söz və informasiya azadlığının təmin olunması istiqamətində mühüm addımlar atılıb. Xüsusilə 1998-ci ildə senzuranın ləğv edilməsi mətbuat tarixində dönüş nöqtəsi olub. Bu qərar nəticəsində ölkədə nəşr olunan qəzet və jurnallar daha sərbəst fəaliyyət göstərməyə başlayıb, müxtəlif baxış və mövqeləri ifadə edən media orqanları meydana çıxıb. Azərbaycanda informasiya cəmiyyətinin formalaşdırılması məqsədilə bir sıra qanunvericilik islahatları həyata keçirilib. "Media haqqında qanun qəbul olunub. Bu və digər qanunlar vətəndaşların məlumat alma hüququnu genişləndirməklə yanaşı, media subyektlərinin hüquqi bazasını da möhkəmləndirib. Eyni zamanda, Azərbaycanda internet azadlığının inkişafı da diqqət mərkəzində saxlanılır. Son illərdə genişzolaqlı internetin ölkə üzrə əlçatanlığı artmış, sosial media platformaları vasitəsilə vətəndaşların fikir ifadə imkanları genişlənib. Bloglar, "YouTube" kanalları, "Facebook", "X") kimi platformalar ictimai rəyin formalaşmasında mühüm rol oynamağa başlayıb.



### Söz və məlumat azadlığının inkişafı daim çağırışlarla üzləşir

Azərbaycan hökuməti, media sahəsində peşəkarlığın artırılması və jurnalistlərin hüquqlarının müdafiəsi üçün müxtəlif proqramlar həyata keçirir. Medianın İnkişafı Agentliyi jurnalistlərin təlimlərə cəlb olunması, sosial müdafiəsinin gücləndirilməsi, regionlarda informasiya çıxışının artırılması və yerli medianın gücləndirilməsi üçün layihələr icra edir.

Bununla yanaşı, söz və məlumat azadlığının inkişafı daim çağırışlarla üzləşir. İnformasiya mühitində dezinformasiya və yalan xəbərlərin yayılması, sosial şəbəkələrdə nifrət nitqinin artması və etik qaydalara əməl olunmaması kimi hallar həm cəmiyyət, həm də dövlət üçün ciddi problemlər yaradır. Buna görə də, həm vətəndaş cəmiyyəti institutlarının, həm də media qurumlarının məsuliyyətli davranışı vacibdir. Müasir dövrdə informasiya təhlükəsizliyi, kiberhücumlar və informasiyanın manipulyasiyası da ciddi narahatlıq doğuran məsələlər sırasındadır. Azərbaycan bu istiqamətdə hüquqi və texnoloji tədbirlər görməklə yanaşı, vətəndaşların informasiya savadlılığını artırmaq üçün maarifləndirici layihələr həyata keçirir. Bu, xüsusən gənc nəslin düzgün və sağlam informasiya mühitində formalaşmasına xidmət edir.

Nəticə olaraq, Azərbaycanda fikir, söz və məlumat azadlığı sahəsində mühüm nailiyyətlər əldə olunub. Lakin bu sahədə inkişaf prosesi davamlı xarakter daşıyır. Demokratik prinsiplər, plüralist dəyərlər daim eyni vəziyyətdə qalan sabit anlayışlar deyil və onlar hər zaman yeniliyə, təkmilləşməyə yönəlirlər. Azərbaycanda qərarlaşan demokratik dəyərlər də tədricən təkmilləşərək yeni keyfiyyətdə təzahür edir. Bu keyfiyyət milli xüsusiyyətləri və müasir elementləri ehtiva edərək özünəməxsus konsepsiya formalaşdırır. Demokratik cəmiyyətin dayanıqlığı üçün bu azadlıqların qorunması və daha da genişləndirilməsi vacibdir. Hökumət, vətəndaş cəmiyyəti və media bu istiqamətdə birgə əməkdaşlıq etməklə, həm cəmiyyətin inkişafına, həm də şəffaf və açıq informasiya mühitinin formalaşmasına töhfə verə bilər.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**